

Aytac Quliyeva

# Dünya düşünə bilənlər üçün cəhənnəmdir

## *Cəlil Məmmədquluzadənin məqalələri barədə*



Azərbaycan ədəbiyyatı tarixində zaman-zaman elə şəxsiyyətlər olmuşdur ki, onların fikirləri bu gün də yaşamaqdadır. Bu sənətkarlardan biri də Cəlil Məmmədquluzadədir. Görkəmli yazıçı, dramaturq, publisist Mirzə Cəlilin təkcə bədii əsərləri deyil, məqalələri də böyük maraq doğurur. O, məqalələrində dövrün heç bir mühüm problemindən yan keçməyib. Cəmiyyətdəki bütün çatışmazlıqları, yaramaz cəhətləri böyük bir ustalıqla əks etdirən ədibə bu taleyüklü məsələləri tam şəffaflıqla açıb göstərmək üçün olduqca təsirli bir silah lazım idi. Vətəndaş-sənətkar məhz belə bir silah kimi özünə satiranı seçir, lakin elə bir satira ki avam xalqı qəflət yuxusundan oyatmağa qadir olsun, bu gülüşün arxasındakı son dərəcə önəmli mətləbləri xalqa aşılaya bilsin. Publisist məqalələrində məqsədə uyğun olaraq müxtəlif imzalarla çıxış edib. "Molla Nəsrəddin", "Dəli", "Mozalan", "İmzasız", "Köhnə müəllim", "Qızdırmalı", "Lağlağı" və s. onlardan bəziləridir. Daha çox "Molla Nəsrəddin" imzası ilə yazması isə heç də təəccüb doğurmur.

Dünya düşünən bilən insanlar üçün əsil cəhənnəmdir. Ədibin dünyasını da cəhənnəmə çevirən səbəblər çox idi. Yaramazlar, "dindar" ruhanilər, qondarma bəylər, rüşvətxor qazılar, millət anlayışından bixəbərlər onun ifşaedici tənqidinə məruz qalmış, məqalələrinin əsas mövzusuna çevrilmişdir.

### XALQI ZƏHƏRLƏYƏN RUHANİLƏR

"Müsəlman intelligentləri heç nədən qorxmaz təkcə mollalardan başqa, əgər molla məndən incisə nəyə lazım elm?". Bu fikirləri Mirzə Cəlil "Qorxmayanlar" məqaləsində yazıb. Onu düşündürən və daim narahat edən ən böyük problem din pərdəsi altında öz mənfəətlərini güdən, xalqı zəhərləyən ruhanilər olub. Yazıçı elm, maarif, tərəqqi istəyirdi, lakin idealları ilə həyat həqiqətləri üst-üstə düşmədiyi üçün çıxış yolunu yazmaqda görürdü. Xalqının halına acıyır, Vilson notasından söhbət salanlar, ingilis və rus politakasından danışanlar, orta məktəblərdə ana dili məsələsini qabardanlarla, dünya-axirət, molla-professor, məscid-darülfünün ikiləşməsi arasında qalanları müqayisə edir. Müsəlmanların oruc tutarkən, avropalıların çoxsaylı icadlar etməsini anlamır, anlaya bilmir. Təsisçisi olduğu "Molla Nəsrəddin" jurnalının 2 illik fəaliyyətsizlik dövründə özünün necə bikar qalmadığını izah etdiyi "İdarədən" məqaləsində maraqlı məsələlərə toxunaraq özünəməxsus bir şəkildə din yoldaşlarını ifşa edir. Bu 2 il ərzində məşğuliyyət tapmasının səbəbini müsəlmanlıqda görür. Zilhiccə toyları, məhərrəmlik ayı, təkyələr, mərsiyələr, ölü məclislərinin müsəlmanların başını necə qatdığından danışır, lakin "Molla Nəsrəddin" jurnalının bağlanması haqda söz salmağı burada lazım bilmir. "Müsəlmanlar silahlanır" məqaləsində də eyni "məşğuliyyətlərdən" danışır. Böyük ədib düşünürdü ki, insanlar din və dindarlıq kimi oyuncaqlardan nə zaman əl çəkəcək, elə o zaman özünü dərk edəcək, nə zaman xurafatdan üz döndərəcək, bax o zaman maarifə meyil edəcək. Bütün bu düşüncələrə görə, Mirzə Cəlili "dinsiz", "kafir" adlandıranlar çox oldu. Bu yanlış tənqid və təhqirlərə yazıçı "Niyə məni döyürsünüz" felyetonunda tutarlı bir cavab verib. Məqalədən bir hissəni olduğu kimi verməyi daha məqsədəuyğun bilirəm. "A mollalar, niyə məni döyürsünüz? Olmaya, məndən qorxursunuz ki, əyilib camaatın qulağına bir neçə söz pıçıldayam, bir neçə mətləbdən agah edəm?". Cəlil Məmmədquluzadə dinsiz olmamışdır, o, Allaha, peyğəmbərə, imamlara inanmağın tərəfdarı idi, mollalara, dərvişlərə, fala baxanlara, mərrixlərə, cinlərə, şeytanlara, mozalanlara... deyil. Bütün bunlara rəğmən, onu hələ də anlamayıb tənqid edənlərə istehza qarışıq bir gülüşlə deyirdi ki, yaşasın, avam xalqın molları!

### ŞƏRQ QADINI MƏSƏLƏSİ

Yüz illər boyu şərq təfəkküründə qadına ikinci dərəcəli bir varlıq kimi baxılıb, haqqı tapdalanıb, azadlığı əlindən alınıb, qul halına salınıb, əşya kimi satılıb, döyülüb, hətta öldürülüb. Bu qeyri-sağlam yanaşmalara ədib razı olmadığından daim qadın azadlığı problemini məqalələrində qabartmağa çalışmışdır. O, 7 yaşı tamam olmuş qızların daha oxumağa icazə verilməməsinə, 9 yaşlı balaca qızcığazların ah-nalələrinə baxılmadan kəbin kəsilməsinə dözə bilmirdi. Bu problemlərin ön planda olduğu yazılarında belə çürük adət-ənənələrimizi beyinlərdən silməyə çalışmışdır. Cəlil düşüncəsi müsəlmanların "qeyrət" anlayışını qəbul etmirdi, çünki şərq düşüncə tərzi qeyrəti məhz qadını öldürməkdə görürdü. Bu məsələlərin ətraflı izahını verdiyi "Arvad öldürənlər" məqaləsində C.Məmmədquluzadə yazır ki, Şura ədliyyəsi bu cür "qeyrət" istilahını ləğv etmək istəyir, amma belə olsa, qoçularımız "mod"dan düşəcək, namərdlik və yırtıcılıqla qazandıqları adlar məhv olacaq. Əlbəttə, hər işdə olduğu kimi belə məqamlarda da qoçuların havadarları olan mollalara arxalandıqlarını yaxşı bilirdi dahi yazıçı, buna görə də özünün "Qız götürüb qaçmaq" məqaləsində qeyd edir ki, yoldaşlar qız qaçırarkən arxayındırlar ki, döyə-döyə gətirsələr də, molla onlara kəbin kəsəcək. Bütün bunların timsalında "Qız tərbiyəsi" məqaləsində də incə bir nüansa toxunur və bildirir ki, oxumuş oğlanlar evlənmə yaşı gələndə təhsilli qız axtarır, tapmadığında xarici qızlarla izdivac qurur, beləliklə ailələrin milliliyi azalır. Daha sonra istehzalı bir şəkildə əlavə edir ki, bundan bir çıxış yolu var, qızı oxumağa qoymuruqsa, oğlanları da qoymamalıyıq.

### UŞAQLARIMIZ

Cəlil Məmmədquluzadə uşaqlara qarşı olduqca həssas idi, çünki o, çox gözəl anlayırdı ki, gələcək məhz indiki uşaqların əlində olacaq. Buna görə də hər cür vəchlə onlar üçün aydınlıq bir sabah yaratmaq istəyirdi. Sırf uşaqlar sağlam bir cəmiyyətdə formalaşsın deyə bu günü bütün çirkinlik və xislətdən təmizləmək onun arzusu idi. Özünün "Çarə lazım" məqaləsində maariflənməyin hava, su kimi lazım olduğunu yazır və iki yoldan (ya maarifdən əl çəkəcəyik, ya da bir çox Avropa xalqlarını təqlid edəcəyik) birini seçməyin zəruriliyini qeyd edir. Bu mövzuya toxunarkən o, valideyn faktorunun son dərəcədə önəmli olduğunu da dəfələrlə vurğulayır. "Uşaqlar nə oxuyur oxusun, amma bizə baş ağrısı olmasın" ideologiyası ilə yaşayan valideynləri bu yoldan əl çəkməyə çağırır, anlatmağa çalışır ki, mədrəsəyə qoyub, 5-6 ayda bircə dəfə gedib maraqlanmaqla iş bitmir. Çox atanın uşağının oxuduğu yeri belə bilməməsini böyük ürək ağrısı ilə qeyd edir. Ədibi uşaqlarla bağlı düşündürən başqa bir məqam isə onların asudə vaxtının səmərəli təşkil olunması problemi idi. Bunun üçün ən gözəl vasitəni uşaq teatrlarının yaranmasında görür. "Uşaq teatrı" məqaləsində bu haqda heç yerdə yazı-pozuya rast gəlmədiyini qeyd edərkən problemə diqqəti cəlb etmək üçün Mirzə Fətəli Axundovun əsərlərinin səhnəyə qoyulduğu gün uşaqların çöhrəsində yaranan xoşbəxtliyini xatırlatmağı lazım bilir.

### MİLLƏT VƏ ŞƏXS ANLAYIŞLARI

Mirzə Cəlil məqalələrində öz əksini tapan məsələlərdən biri də məhz millət, millilik və şəxs anlayışlarıdır. Şəxsi mənafenin mili mənafedən üstün tutulduğu bir dövrdə publisistin bu məsələyə biganə qalmasını gözləmək olmazdı. O, "Rus məxrəci" məqaləsində xalqın halına acıyaraq bizi əvvəl ərəb, indi də rus məxrəcinə uyğunlaşdırmaqla vətən və dilimizdən ayırmaq istədiklərini böyük bir təəssüf hissi ilə yazıb. Buna görə də ana dili probleminə yaradıcılığında geniş yer ayıran Cəlil "Qeyrət" məqaləsində qeyd edir ki, ana dilinin orta məktəblərdə keçirilməsinə razılıq verilsə belə, bu fənni tədris edəcək müəllim tapmaq mümkün olmayacaq, lakin sonradan o, istehza ilə əlavə edir ki, bəzi insanlar gecə-gündüz yatmadan bu məsələni həll edə bilərlər, məsələn, qazılara qazanc versən, bu işlə canla-başla məşğul olarlar. Cəlil Məmmədquluzadə bununla bildirmək istəmişdir ki, bəzi dövlət adamları qazancdan ötrü hər cür işi görməyə hazırdırlar və ya digər bir məqaləsində ehsanın belə hər hansısa bir "rüşvət" qarşılığında (bu rüşvəti axirətdə ona yaxşı bir şey verilməsi üçün edirlər) verildiyini qeyd edir. Millət və şəxs kimi mühüm anlayışlara toxunan yazıçı lüğət kitablarında bu məfhumların eyni verilməsinin səbəbini bizim milli işlərimizin əvəzinə şəxsi dəsgahlarımızın peyda olması ilə əlaqələndirir. Yüksək vəzifə sahiblərinin xalqın, millətin halına yanmadığını da ədib hər fürsətdə vurğulayır. İnsanları ac saxlamalarını, küçələrin natəmiz olduğu bir vaxtda "təmizlik azarın düşmənidir" yazısı ilə problemin kökündən "həll olunduğunu" məqalələrində cəsarətlə əks etdirir. Yazıçı xalqı öz mənliyini dərk etməyə, milliyət sözünü anlamağa dəvət edir. "Qulağımız qızışıb" məqaləsində bu məsələrə toxunarkən dükanlarda, idarələrdə, küçə qapılarında yazılan ilan, qurbağa, kərtənkələ şəkilli, nöqtəli yazıları qəbul etmir, ana dilini dəstəkləyir.

Bu verilən örnəklər görkəmli sənətkarın publisistik yaradıcılığının kiçik bir hissəsi idi. Onun həll etməyə çalışdığı problemlər, əks etdirdiyi məsələlər dövrümüz üçün hələ də aktuallığını itirməyib. Bu gün də maarif, tərəqqi, yenilik deyəndə ağla məhz Cəlil Məmmədquluzadə gəlir. Çox təəssüf ki, onu anlayan, yaşadığı dövr çərçivələrində qiymət verən çox az oldu. "Dilimizi korlayan yazıçı" , "xırda burjua ədəbiyyatı nümayəndəsi", "cığırdaş" kimi müxtəlif adlarla damğalandı, böyük əzab-əziyyətlə ərsəyə gətirdiyi doğma "Molla Nəsrəddin" bağlandı. Bütün bunlar ədibi dərin bir mənəvi böhrana düçar etmişdir.

İllər keçdi... Mirzə Cəlil yaradıcılığı, sənəti öz layiqli sözünü dedi. Bu irs qorunub saxlanıldı. Bütün əks fikirlərə rəğmən Azərbaycan ədəbiyyatı tarixində Cəlil Məmmədquluzadə kimi bir dahi olduğunu bu gün hər kəs fəxarət hissi ilə deyə bilər. O, daim öz mütərəqqi fikirləri ilə hər bir azərbaycanlının xatirəsində yaşayıb və yaşayacaq!